

# Məzahir SÜLEYMANZADƏ

Amansız ölüm qələm yoldaşımız Məzahir Süleymanzadəni aramızdan apardı.

Məzahir Süleymanzadə 1952-ci il dekabrın 22-də Bakıda anadan olub. 1970-ci ildə Şamaxı şəhərindəki 1 saylı orta məktəbi bitirib. Zaqafqaziya Hərbi Dairəsinin Tbilisidəki Ali Hərbi Müxbirlər məktəbini, Lvov Ali Hərbi-Siyasi Məktəbinin jurnalistika fakültəsini bitirib. 1974-1979-cu illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb.

Müxtəlif illərdə "Leninskoe znamya", "Krasnaya zvezda", "İdman" - "Sport" qəzetlərində, "Sovetski voin" jurnallarında çalışıb. "Kommunist" qəzetində baş müxbir, məsul katib və redaktor müavini, "Neftçi" idman klubunun və AFFA-nın mətbuat katibi vəzifələrində işləyib. İctimaiyyətin maraqla qarşıladığı Azərbaycan radiosunun "Bulaq" verilişinin müəlliflərindən biri olub. Azərbaycanın idman jurnalistikasının yaradıcılarındandır. 1989-cu ildə müstəqil Azərbaycan mətbuatının ilklərindən sayılan "Səhər" qəzetini təsis edib.

M.Süleymanzadə ən aktual, milli əhəmiyyətli mövzulardan yazırdı. "Qara yanvar dialoqu" (müştərək), "Güllələnmiş qəzetlər", "İzim qalmasa da, sözüm qalacaq" və s. kitabların müəllifidir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 2005-ci ildə Əməkdar mədəniyyət işçisi fəxri adına, bir sıra ədəbi mükafatlara, o cümlədən, "Qızıl qələm", "Həsən bəy Zərdabi", "Mirzə Cəlil", "Araz" Ali mükafatına layiq görülüb.

İstedadlı yazıçı-publisist, səmimi, təvazökar insan Məzahir Süleymanzadənin işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 14 may.- S. 32.**